**Musiqi (Azərbaycan bölməsi)**

**1. “Şəhrizad” simfonik süitası və “Min bir gecə” baletinin hansı ortaq cəhəti var?**
A) Eyni ildə bəstələnib.
B) Eyni bəstəkarın əsərləridir.
C) Eyni nağıl əsasında yazılıb.
D) Klassik operalardır.
E) Eyni gündə səhnələşdirilib.

**2. “Mirzə Hüseyn”, “Xaric” hansı muğamın növləridir?**
A) Bayatı-Şiraz
B) Segah
C) Şüştər
D) Şur
E) Rast

**3. Verilənlərdən hansı həm musiqi əsəri növü, həm də musiqi termini kimi işlədilə bilər?**
A) piano
B) adajio
C) forte
D) temp
E) liqa

**4. Beş diyezli major qammasının adı hansı bənddə verilmişdir?**
A) si major
B) lya major
C) fa major
D) re major
E) mi major

**5. F.Əmirov Azərbaycan musiqisində hansı janrın yaradıcısı olmuşdur?**
A) operetta
B) simfoniya
C) balet
D) opera
E) simfonik muğam

**6. Hansı musiqi alətlərinin qoltuq növləri var?**
A) kamança, tar
B) kamança, nağara
C) saz, nağara
D) tar, saz
E) nağara, ud

**7. “Karvan” musiqi əsərini izah edən müəllim hansı bəstəkarın yaradıcılığına müraciət edir?**
A) Cahangir Cahangirov
B) Soltan Hacıbəyov
C) Rauf Hacıyev
D) Fikrət Əmirov
E) Üzeyir Hacıbəyli

**8. 4/4 ölçülü xanənin tərkibində neçə səkkizlik not var?**
A) 7
B) 5
C) 8
D) 4
E) 3

**9. Rauf Abdullayev hansı orkestrin dirijoru vəzifəsində çalışmışdır?**
A) Xalq çalğı alətləri orkestri
B) Simli alətlər orkestri
C) Simfonik orkestri
D) Kamera orkestri
E) Nəfəs alətləri orkestri

**10. Verilən şəxsləri hansı ortaq cəhət birləşdirir?**
Hüseynqulu Sarabski, Cabbar Qaryağdıoğlu, Məşədi Məmməd.
A) aşıq
B) xanəndə
C) ud ifaçısı
D) kamança ifaçısı
E) tarzən

**11. "Don Kixot" simfonik qravürləri hansı bəstəkarın yaradıcılığına məxsus əsərdir?**
A) R. Mirişli
B) Q. Qarayev
C) A. Məlikov
D) M. Mirzəyev
E) R. Mustafayev

**12. Frans Şubertin "Meşə çarı" əsəri hansı janrdadır?**
A) oratoriya
B) ballada
C) opera
D) etüd
E) kantata

**13. Fikrət Əmirov hansı xalq mahnısını səs və fortepiano ifası üçün işləmişdir?**
A) "Sarı gəlin"
B) "Laçın"
C) "Ağacda leylək"
D) "Evləri var xana-xana"
E) "Küçələrə su səpmişəm"

**14. "Ruslan və Lyudmila" operasının personajının adı düzgün verilmiş bəndi seçin.**
A) Knyaz İqor
B) Xoze
C) Sadko
D) Berendey
E) Svetozar

**15. “Aşıq Qərib” dastanı haqqında tədbir hazırlayan müəllim hansı iki bəstəkarın yaradıcılığına müraciət etməlidir?**

A) F.Əmirov, M.Maqomayev
B) P.Çaykovski, Ü.Hacıbəyli
C) F.Şubert, Niyazi
D) R.Qlier, Z.Hacıbəyov
E) N.Rimskiy-Korsakov, S.Rüstəmov

**16. Lya major qammasının tonika üçsəslisini yaradan notların adı hansı bənddə düzgün verilib?**

A) fa diyez, lya, do
B) re, fa diyez, lya
C) lya, do diyez, mi
D) mi, si, sol
E) sol, si, re

**17. Hansı pauza bir yarım not ölçüsünə bərabərdir?**

A) bütöv pauza
B) səkkizlik pauza
C) yarım pauza
D) çərək pauza
E) onaltılıq pauza

**18. Şagird tarda “Gərayi” şöbəsini ifa edə bilirsə, hansı muğama həsr olunmuş tədbirdə iştirak edə bilər?**

A) “Segah”
B) “Şur”
C) “Rast”
D) “Şüştər”
E) “Humayun”

**19. Rəşid Behbudov Tofiq Quliyevin bəstələdiyi mahnıları hansı filmdə ifa edir?**

A) “Ulduz”
B) “Qaynana”
C) “Onu bağışlamaq olarmı”
D) “Nəsimi”
E) “Bəxtiyar”

**20. İlk opera haqqında təqdimat hazırlayan şagird hansı bəstəkarın yaradıcılığından danışmalıdır?**

A) K.Monteverdi
B) V.Motsart
C) K.Debüssi
D) R.Qlier
E) F.Şubert

**21. Aşıq musiqisi hansı komponentlərdən ibarətdir?**

1. Xalq şeiri
2. Aşıq şeiri
3. Şair şeiri

a. Bəstəkar melodiyası
b. Xalq melodiyası
c. Aşıq melodiyası
A) 2-c
B) 2-a
C) 1-b
D) 3-c
E) 3-b

**22. Trio və kvartet neçə musiqiçidən ibarətdir?**
A) 4 və 5
B) 5 və 6
C) 2 və 3
D) 3 və 4
E) 1 və 2

**23. Xalq mahnısı kimi tanınan bu mahnının əsl müəllifi məşhur xanəndə olmuşdur. Mahnının adı hansı bənddə düzgün verilib?**
A) "Sarı gəlin"
B) "Əlində sazın qurbanı"
C) "Qəmərim"
D) "Laçın"
E) "Naz eləmə"

**24. Z. Bağırov operettasını, T.Quliyev isə həmin pyesin əsasında çəkilmiş filmin musiqisini bəstələmişdir. Düzgün bəndi seçin.**
A) "Bəxtiyar"
B) "Sevil"
C) "Ulduz"
D) "Qərib cinlər diyarında"
E) "Qaynana"

**25. O.Zülfüqarov yaradıcılığından olan hansı əsər uvertüra janrında yazılmışdır?**
A) "Şənlən, mənim xalqım"
B) "Oynaq topum"
C) "Can nənə"
D) "Pişik və sərçə"
E) "Şəngülüm, şüngülüm, məngülüm"

**26. Soprano və alt səslərinin ifası üçün nəzərədə tutulmuş əsər hansı heyət ilə ifa olunmalıdır?**
A) qadın xoru
B) uşaq xoru
C) kişi və uşaq xoru
D) qarışıq xor
E) kişi xoru

**27. Ə.Bədəlbəyli "Kikican" xalq rəqsindən hansı janrda yazdığı əsərində istifadə etmişdir?**
A) balet
B) oratoriya
C) кonsert
D) opera
E) simfoniya

**28. Xor, orkestr və solistlərin iştirakı ilə ifa olunan əsəri dinləmək istəyən şagird hansı janra müraciət edəcək?**
A) etüd
B) simfoniya
C) oratoriya
D) balet
E) mahnı

**29. Uşaq mövzusunda yazılmış ilk irihəcmli əsər haqqında danışarkən müəllim Ə.Abbasovun hansı əsərini nümunə göstərə bilər?**
A) “Qız qalası”
B) “Qaraca qız”
C) “Tıq tıq xanım”
D) “Şəhzadə Qara qızıl”
E) “Kuklaların yürüşü”

**30. Musiqi əsərinin ağır tempini hansı termin bildirir?**
A) sostenuto
B) grave
C) allegro
D) moderato
E) maestoso

**31. “Xalis intervallar” adlı mövzuda *yanlış* təqdim olunan interval hansıdır?**
A) prima
B) kvinta
C) kvarta
D) oktava
E) nona

**32. Milli qəhrəman mövzusunu öyrənərkən O. Rəcəbovun hansı əsərini nümunə kimi göstərmək olar?**
A) “Çingiz” simfoniya-rekviemi
B) “Çingiz” operası
C) “Çingiz” oratoriyası
D) “Çingiz” baleti
E) “Çingiz” mahnısı

**33. Milli trio haqqında danışan müəllim hansı zərb alətini qeyd etməlidir?**
A) qoşa nağara
B) dümbək
C) nağara
D) dəf
E) tar

**34. Füzulinin qəzəlləri Ü.Hacıbəylinin hansı əsərinin mətn əsasını təşkil edir?**
A) “Leyli və Məcnun”
B) “Şeyx Sənan”
C) “Əsli və Kərəm”
D) “Rüstəm və Zöhrab”
E) “Şah Abbas və Xurşid Banu”

**35. Yaradıcılığında "Şur" adlı əsər olan bəstəkarlar hansılardır?**

A) O.Rəcəbov, F.Əmirov, S.Rüstəmov
B) Ü.Hacıbəyli, Niyazı, R.Mustafayev
C) F.Əmirov, Ü.Hacıbəyli, G.Əliyeva
D) C.Cahangirov, E.Sabitoğlu, Q.Qarayev
E) Niyazi, T.Quliyev, A.Əlizadə

**36. 3/4 ölçülü xanədən neçə çərək not çıxarsaq 2/4 ölçülü xanə almış olarıq?**

A) 4
B) 2
C) 1
D) 5
E) 3

**37. Verilənlərdən hansı bənd interval *deyil?***

A) seksta
B) tersiya
C) septima
D) diskant
E) sekunda

**38. Skripka, alt, violonçel, kontrabasdan ibarət hansı tərkibli orkestr qurmaq olar?**

A) simfonik
B) muğam üçlüyü
C) xalq çalğı
D) simli
E) nəfəs

**39. "Simfonik orkestr, xor və … üçün yazılmış əsər" ifadəsinə hansı söz əlavə edildikdə solo ifaçının iştirakı tələb olunur?**

A) kapelmeystr
B) solist
C) konsertmeystr
D) ansambl
E) oktet

**40. S.Hacıbəyov "Çex rəqsi" əsəri hansı ifa heyəti üçün yazılmışdır?**

A) simfonik orkestr
B) kamera orkestri
C) fortepiano triosu
D) xalq çalğı alətləri
E) nəfəs alətləri orkestri

**41. Gülarə Əliyeva haqqında verilənlərdən *yanlış* fikri seçin.**

A) Opera müəllifidir.
B) "Dan ulduzu" ansamblını yaradıb.
C) "Şur" adı altında əsər müəllifidir.
D) Piano ifaçısı olmuşdur.
E) Ansamblında qoboy və fleyta var idi.

**42. Verilmiş Azərbaycan xalq rəqslərindən hansını köçəri tayfalara aid edirlər?**
A) "Naz eləmə"
B) "Cəngi"
C) "Bağdagülü"
D) "Tərəkəmə"
E) "Şalaxo"

**43. Niyazi aşağıdakı kinofilmlərdən hansısına musiqi yazmışdır?**
A) "Görüş"
B) "Uzaq sahillərdə"
C) "Arşın mal alan"
D) "O olmasın, bu olsun"
E) "Fətəli xan"

**44. İfaçı heyətinə görə aşağıdakı əsərlərdən hansı digərlərindən fərqlənir?**
A) Fleyta və simli orkestr üçün süita
B) Skripka və orkestr üçün poema
C) Kamança və simfonik orkestr üçün konsert
D) Tar və kamera orkestri üçün konsert
E) Skripka və gitara üçün sonata

**45. Müəllimin sadaladıqlarından hansı əsərin adı siyahıdan çıxarılsa, yalnız instrumental əsərlər qalardı?**
A) Simfonik poema
B) Konsert
C) Süita
D) Oratoriya
E) Uvertüra

**46. Verilənlərdən hansı irihəcmli səhnə əsərinin giriş nömrəsi, həm də muğamın tərkib hissəsi ola bilər?**
A) İntroduksiya
B) Epiloq
C) Müqəddimə
D) Proloq
E) Apofeoz

**47. Major ladın hansı halında VI pillə bəmləşdirilir?**
A) melodik
B) diatonik
C) natural
D) xromatik
E) harmonik

**48. Bülbülün baş partiyanın ilk ifaçısı olduğu opera hansıdır?**
A) "Xanəndənin taleyi"
B) "Bahadur və Sona"
C) "Azad"
D) "Leyli və Məcnun"
E) "Koroğlu"

**49. Operalardan hansı klassik opera hesab edilmir?**
A) “Koroğlu”
B) “Nərgiz”
C) “Xanəndənin taleyi”
D) “Azad”
E) “Sevil”

**50. Adları çəkilən işarələrdən hansı notların qırıq-qırıq ifasını göstərir?**
A) forşlaq
B) leqato
C) mordent
D) liqa
E) stakkato

51. *“Şagirdlər müxtəlif xalqların musiqisini araşdırır, musiqidə din və mədəniyyətin təsirini müəyyən edir və əsaslandırırlar.”* **Tapşırıq B.Blumun “İdrak taksonomiyası”nın hansı mərhələsinin inkişafına xidmət edir?**

A) dəyərləndirmək
B) təhlil etmək
C) anlamaq
D) tətbiq etmək
E) yaratmaq

52. *“Şagirdlər Azərbaycan musiqi janrlarını müqayisə edir və hər birinin xüsusiyyətləri haqqında danışır".* **Tapşırıq B.Blumun “İdrak taksonomiyası”nın hansı** mərhələsinin inkişafına xidmət edir?

A) anlamaq
B) tətbiq etmək
C) təhlil etmək
D) dəyərləndirmək
E) yaratmaq

53. *“Şagirdlərə tapşırılır ki, müəyyən musiqi əsərinə uyğun rəsm kompozisiyası hazırlasınlar”.* **Bu fəaliyyət inteqrasiyanın hansı növünə aiddir?**

A) yalnız fəndaxili
B) yalnız fənnüstü
C) fənlərarası, fənnüstü
D) yalnız fənlərarası
E) fəndaxili, fənlərarası

**54.** *"Müəllim summativ qiymətləndirmə üçün əvvəlki illərdə istifadə olunmuş test nümunəsini götürür. Lakin həmin test hazırkı tədris proqramında nəzərdə tutulan təlim nəticələri ilə uyğun gəlmir”.* **Bu situasiyada qiymətləndirmənin hansı prinsipi pozulmuşdur?**
A) Obyektivlik pozulub: Qiymətləndirmənin müəllimin subyektiv rəyindən asılı ola biləcəyi düşünülür.
B) Humanistlik pozulub: Şagirdlərin psixoloji və emosional vəziyyəti nəzərə alınmayıb.
C) Şəffaflıq pozulub: Şagirdlərə qiymətləndirmə mövzuları əvvəlcədən bildirilməyib.
D) Validlik pozulub: Test ölçülməsi nəzərdə tutulan təlim nəticələrini yoxlamır.
E) Etibarlılıq pozulub: Test fərqli vaxtlarda sabit və ardıcıl nəticə verməyə bilər.

**55. Verilənlərdən biri effektiv müəllim-valideyn münasibətlərinə aid deyil:**
A) Müəllim istifadə olunan tədris materiallarının məzmununu anlamağa kömək etmək üçün valideynləri metodik resursla təmin edir.
B) Müəllim məktəbdə və sinifdə valideynlərin iştirakını təşviq edən pozitiv atmosfer yaradır.
C) Müəllim valideynləri müntəzəm olaraq sinif fəaliyyətləri, tapşırıqlar və gözləntilər barədə məlumatlandırır.
D) Müəllim valideynə bildirir ki, onun övladının təlim-tərbiyəsi ilə bağlı narahatlığını həll etməyə hazırdır.
E) Müəllim valideynləri övladlarının təhsili ilə bağlı fikirlərini və narahatlıqlarını bölüşməyə təşviq edir.

**56. Valideynlə-məktəb münasibətlərini inkişaf etdirmək üçün hansı yanaşma yanlışdır?**
A) Valideynlərə maarifləndirici resurslar və dəstək təqdim etmək
B) Müntəzəm rəy və informasiya paylaşmaq
C) Valideynləri məktəb mühitində iştirakını təşviq etmək və onların məktəb prosesində fəal rol oynamaqlarını təmin etmək
D) Münasibətləri yalnız akademik nəticələrə əsaslanaraq dəyərləndirmək
E) Müntəzəm olaraq valideyn görüşləri və tədbirlər təşkil etmək

**57.** *"Müşahidə olunur ki, yuxarı sinif şagirdlərindən biri öz sinif yoldaşını bullinqə məruz qoyur. Belə ki, tez-tez onun əşyalarını gizlədir, yoldaşları arasında xətrinə dəyən sözlər deyir".* **Problemin həlli üçün sinif rəhbərinin atacağı hansı addım effektiv olacaq?**
A) Həmin sinifdə dərs deyən müəllim, valideyn və şagirdlərlə görüşmək və bu prosesin nə üçün baş verdiyi ilə maraqlanmaq
B) Sinifdə dərs deyən müəllimləri və məktəb psixoloqunu məsələnin həllinə cəlb etmək və sinifdə mənəvi dəyərlərin inkişafı üçün addımlar atmaq
C) Məktəbin valideynləri, müəllimləri və psixoloqu ilə görüşmək, ümumilikdə məktəbin psixoloji-emosional mühitini yaxşılaşdırmaq baxımından addımlar atmaq.
D) Bullinqə məruz qalan şagirdlə görüşüb onu güclü olmağı tapşırmaq.
E) Bullinq edən şagirdi çağırıb danlamaq.

**58.** *“Dərs zamanı bir neçə şagird tez-tez zarafat edir, bir-biri ilə danışır və sinfin diqqətini yayındırır. Müəllimin xəbərdarlığından sonra qısa müddət sakitləşsələr də, davranışı yenidən təkrarlayırlar. Digər şagirdlərin bir qismi bu davranışlara qoşulur, bir qismi isə dərsə fokuslana bilmir”.* **Bu vəziyyətdə müəllimin ən məqsədəuyğun davranışı hansıdır?**

A) Şagirdləri sinif qarşısında ciddi şəkildə danlamaq və bununla digər şagirdlərə də xəbərdarlıq etmək
B) Davranışı yeniyetməlik dövrünün təbii xüsusiyyəti kimi qəbul edib, yalnız vəziyyət daha da ağırlaşarsa, müdaxilə etmək
C) Sinif qaydalarını xatırlatmaq, şagirdin şəxsiyyətinə yox, konkret hərəkətinə yönələrək əks-əlaqə vermək
D) Əsas diqqəti həmin şagirdlərə yönəldib dərsi daha əyləncəli aparmaq, intizam problemini motivasiya çatışmazlığı kimi həll etməyə çalışmaq
E) Həmin şagirdləri dərhal sinifdən çıxarmaq və məsələni məktəb rəhbərliyinə bildirmək

**59.** *"Bir şagird qrup işində lider rolunu oynayır, lakin digər qrup üzvləri ilə münasibətləri pisdir və bu, qrup işinin gedişinə mənfi təsir göstərir".* **Müəllim problemi necə həll etsə, daha effektiv olar?**

1. Şagirdin liderlik rolunu dəyişdirmək və sonra onu digər qrup üzvləri ilə müzakirəyə cəlb etmək
2. Qrup üzvlərinə mübahisələri həll etməyin yollarını birbaşa göstərmək
3. Şagirdə liderliklə bağlı yönəldici suallar verməklə problemin həllinə nail olmaq
4. Qrup liderinin fəaliyyətini müşahidə edərək diqqətdə saxlamaq və əlavə dəstəyi təmin etmək

A) 2, 3
B) 3, 4
C) 1, 3
D) 1, 2
E) 2, 4

**60.** **Cədvələ əsasən uyğunluğu müəyyənləşdirin.**

| **Doğru** | **Yanlış** |
|---|---|
| **1.** Şagirdi fasilitasiya etmək ona kömək etmədən tapşırıqların icrasını təmin etmək deməkdir. | **3.** Şagirdin maraq və istəklərini summativ qiymətləndirmədə nəzərə almaq effektiv müəllim-şagird münasibətlərinin qurulmasına şərait yaradır. |
| **2.** Şagirdlərdə məntiqi təfəkkürü formalaşdırmaq üçün onlara məntiq xətalarını izah etmək lazımdır. | **4.** Şagirdin müşahidə yolu ilə əldə etdiyi informasiyanı necə emal etməsi onda emosional təfəkkürün nə dərəcədə inkişaf etdiyini müəyyənləşdirməyə imkan verir. |

A) 1, 2
B) 1, 4
C) 1, 3
D) 2, 3
E) 3, 4

**Doğru cavablar**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1 | C | 16 | D | 31 | A | 46 | C |
| 2 | E | 17 | D | 32 | B | 47 | D |
| 3 | C | 18 | B | 33 | C | 48 | B |
| 4 | D | 19 | E | 34 | D | 49 | D |
| 5 | E | 20 | D | 35 | D | 50 | D |
| 6 | A | 21 | B | 36 | A | 51 | B |
| 7 | B | 22 | D | 37 | C | 52 | A |
| 8 | B | 23 | A | 38 | C | 53 | D |
| 9 | D | 24 | C | 39 | A | 54 | D |
| 10 | E | 25 | B | 40 | B | 55 | A |
| 11 | E | 26 | A | 41 | C | 56 | D |
| 12 | B | 27 | D | 42 | C | 57 | B |
| 13 | C | 28 | D | 43 | B | 58 | C |
| 14 | A | 29 | C | 44 | B | 59 | B |
| 15 | D | 30 | C | 45 | B | 60 | E |